# TÜRKİYƏ

# ANKA-III böyük hədəflərə doğru



Türkiyənin pilotsuz platformalardakı səyahəti artıq yüksək səviyyədədir. Bu məqamda diqqətçəkən layihələrdən biri də ANKA-III-dür.

2023-cü ilin sonunda ANKA-III ilk uçuşunu uğurla həyata keçirib. Daha sonra dəfələrlə səmaya qalxıb. Hazırda layihə üzərində işlər davam edir.

**(davamı 10-cu səhifədə)**






# TÜRKİYƏ
# ANKA-III böyük hədəflərə doğru




**(əvvəli 1-ci səhifədə)**

Türk aviasiya sənayesinin pilotsuz uçuş aparatlarına (PUA) doğru inkişafı ilə bağlı ən vacib qərarlardan biri 2004-cü ildə Müdafiə Sənayesi Məsləhət Şurasının (SSİK) toplantısında qəbul edilib. Bu qərarla TAİ-yə orta mənzilli İHA-nın inkişafı layihəsi verilib və sonradan layihə ANKA adlandırılıb. Həmçinin İsraildən "Heron" adlı İHA-lar satın alınıb. "Heron"un tədarükü və istismarı çox çətin bir layihəyə çevrilsə də, qısa müddətdə Türkiyə Silahlı Qüvvələrinə terrorla mübarizədə əhəmiyyətli imkanlar təqdim edib.

TAI-nın ANKA və Baykar istehsalı olan TB-2 platformaları dünyada məşhurlaşıb.

Təxminən 15 il davam edən proses nəticəsində Türkiyə Silahlı Qüvvələri ilə PUA və SİHA-ları doktrina edərək, onları əməliyyat quruluşlarının əvəzsiz hissəsinə çevirib. İmkan yarandıqca onlardan atılacaq xüsusi sursatlar hazırlanmağa başlanılıb. Bu baxımdan, Türkiyə müdafiə sənayesi dünyada demək olar ki, görünməmiş bir dinamizm nümayiş etdirib.

2022-ci ildə Baykar reaktiv mühərrikli, görmə qabiliyyəti az olan və gövdə içərisində sursat yükünü daşımaq üçün nəzərdə tutulmuş Kızılelma platformasını ictimaiyyətə açıqlamışdı. Eyni dövrdə TUSAŞ ANKA-III adlı platformanı da elan edərək ilk konseptual dizaynları təqdim etmişdi. Bu layihələrin hər ikisində daha ağır, daha yüksək yükdaşıma qabiliyyətinə malik olan və onu üzərində daşıya bilən reaktiv mühərrikli və çox yüksəksürətli platformalar hədəf alınmışdı.

Baykarın təqdim etdiyi "Kızılelma" pilotsuz və kokpiti olmayan yeni nəsil reaktiv təyyarə kimi görünsə də, ANKA-III çox fərqli, "uçan qanad" tipli dizayndadır.

ANKA-III-də əsas məqsəd bəlkə də düşmən radarlarına görünmədən, optik müşahidə sistemləri tərəfindən tutulmadan çox uzun məsafələrə uçmaq, lazım gələrsə, müəyyən hava məkanında uzun müddət qalmaq və verilən tapşırıqları yerinə yetirməkdir. Bu baxımdan, ANKA-III inkişafa açıqdır və sensorları gövdəsinə inteqrasiya olunmuş və aşağı ötürücü və ya heç bir ötürmə keçirməyən, düşmən tərəfindən aşkarlanması çox çətin olan bir platforma olmağa da namizəddir.

Kızılelmaya görə ANKA-III sıx təhlükə mühitində belə düşmən radarlarına düşmədən, düşmən hava sahəsindəki hədəfləri qiymətləndirməsi mümkündür.

Hazırkı şəraitdə düşmən hədəfləri çox uzaqmənzilli, mürəkkəb proqram təminatına malik, çox baha başa gələn və hədəfə çatan kimi məhv edilən qanadlı raketlərlə hücuma məruz qalır. ANKA-III kimi bir platforma ilə düşmənin hava məkanına dərindən nüfuz edib, birbaşa sursatla ora hücum etməyin mümkün olduğu öyrənilir.

ANKA-III və Kızılelma əslində rəqib deyil, əksinə bir-birini tamamlayırlar. Milli Döyüş Təyyarəsi KAAN, şübhəsiz ki, bu qabiliyyət cədvəlinin başındadır.

Həm ANKA-III, həm də Kızılelma platformaları uçuş yetişmə testlərini davam etdirir. Bu platformaların kifayət qədər istehsal olunması üçün bir çox alt sistemlərin tədarükü və lazım gəldikdə lokallaşdırılması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan riski minimuma endirmək üçün bəzən bir-birinə paralel müxtəlif tədqiqatlar da aparılır.

ANKA-III-dən gələcəkdə hansı əməliyyatlar zamanı istifadə ediləcəyi və Ankaranın bu platforma ilə hansı strateji hədəflərə çatmağı planlaşdırdığı maraq doğurur. Lakin ilk uçuşların uğurla başa çatması onu göstərir ki, ANKA-III hələ başlanğıcdır və layihə daha böyük hədəflərə doğru irəliləyəcək.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**